**TARİX**

**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2024.2.9**

**İSMAYIL HACIYEV**

# AZƏRBAYCAN RESPUBLİKASININ TƏRKİBİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SİYASİ-HÜQUQİ STATUSU

*Məqalədə 1918-1921-ci illərdə Naxçıvan diyarında baş vermiş ictimai-siyasi və hərbi vəziyyət, ermənilərin Naxçıvan ərazisinə iddiaları, bunun üçün əraziyə hərbi basqınları, Naxçıvan əhalisinin ermənilərə qarşı mübarizəsi, Zəngəzurun Ermənistana verilməsi, nəticədə Naxçıvanın Azərbaycanla sərhəd əlaqəsinin pozulması, Naxçıvan əhalisinin muxtariyyət statusu uğrunda mübarizəsi, Naxçıvanda keçirilən rəy sorğusu, Moskva və Qars müqaviləsinin bağlanması və Naxçıvan məsələsi tədqiq edilmişdir.*

*Unitar dövlətlər, onların tərkibindəki muxtar qurumlar, qarşılıqlı əlaqələri, Naxçıvan muxtariyyətinin xüsusiyyətləri, onun siyasi-hüquqi statusu, dünya təcrübəsi və digər məsələlər də müqayisəli araşdırılmışdır.*

**Açar sözlər:** *Moskva və Qars müqavilələri, Naxçıvan, muxtariyyət, unitar dövlət, ərazi muxtariyyəti, muxtar respublika, siyasi-hüquqi status.*

**Giriş.** Son yüzillikdə Azərbaycan tarixinin ən önəmli hadisələrindən biri ötən əsrin 20-ci illərində imperialist dairələrin tarixi torpaqlarımızı hərraca qoymaq cəhdlərinin meydan suladığı günlərdə qədim türk yurdu Naxçıvanın ərazi muxtariyyəti statusu ilə ölkəmizin tərkibində mövcudluğunu qoruyub saxlaması olmuşdur.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında oynadığı yüksək rolu nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında 30 dekabr 2023-cü il tarixdə Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəylər-Eldənizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir".

XX əsrin əvvəllərində Cənubi Qafqazda baş vermiş ictimai-siyasi və hərbi hadisələrin nəticəsində üç müstəqil respublika yarandı. Batum sülh müqaviləsinə əsasən Azərbaycan torpaqlarında 10 min kv. km ərazisi olan Ararat (Ermənistan) Respublikası təşkil olundu. Lakin erməni daşnakları bu ərazi ilə kifayətlənməyib Azərbaycana qarşı torpaq iddiaları ilə çıxış etməyə başladı. Onların ərazi iddialarında Naxçıvan diyarı da var idi. 1918-1920-ci illərdə ermənilər Naxçıvana mütəmadi olaraq basqınlar edir, şəhər və kəndləri dağıdır, yerli azərbaycanlılara qarşı soyqırımı siyasəti həyata keçirirdi. Bu sahədə böyük dövlətlər onlara hər cür yardım göstərirdilər.

Gümrü müqaviləsinə görə Naxçıvan ərazisini Türkiyə dövləti öz himayəsinə götürmüşdü və Kazım Qarabəkir paşanın başçılığı ilə buraya türk hərbi hissələri gəlmişdi. Həmin hissələr naxçıvanlılar ilə birgə ərazini erməni işğallarından qoruyurdu.

Ötən əsrin 20-ci illərinin əvvəllərində Rusiya Sosialist Federativ Sovet Respublikası hökuməti və Türkiyə Böyük Millət Məclisi arasında mehriban münasibətlər yarandı və bu geosiyasi şərait Moskva müqaviləsi ilə nəticələndi. Moskva müqaviləsinin üçüncü maddəsi bilavasitə Naxçıvanla bağlı idi. Bu maddənin şərtinə görə Azərbaycanın protektoratı altında Naxçıvana muxtariyyət statusu verildi və Azərbaycan SSR onu üçüncü dövlətə verməməlidir. Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında Qars müqaviləsi bağlandı və həmin müqavilənin beşinci maddəsinə görə Türkiyə, Azərbaycan və Ermənistan Naxçıvan vilayətinin Azərbaycanın tərkibində muxtariyyət statusunda olmasını qəbul etdilər. Hər iki müqavilə ilə Naxçıvan vilayətinin ərazisi və sərhədləri də dəqiqləşdirildi.

Naxçıvan vilayəti muxtariyyət statusu əldə etsə də muxtar respublikanın yaranması xeyli vaxt çəkdi. Müqayisə üçün bildiririk ki, Moskva müqaviləsinə görə Acarıstana da muxtariyyət statusu verilmişdi və 1921-ci ilin iyununda Acarıstan Muxtar Respublikası yaradıldı. Əksinə, 1923-cü ilin fevralında Naxçıvanın muxtar respublika statusu muxtar diyarla əvəz edildi. Lakin bu beynəlxalq müqavilələrə zidd idi. Ona görə də Türkiyə hökuməti buna etirazını bildirdi. Nəticədə RK(b) MK Siyasi Bürosunun 1923-cü il 23 avqust qərarı ilə Naxçıvan Muxtar Respublika statusunun bərpa edilməsi haqqında qərar qəbul edildi. Buna müvafiq olaraq Naxçıvan MİK 1924-cü il yanvarın 18-də Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında qərar qəbul etdi. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR yaradıldı.

Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusu və onun siyasi-hüquqi xarakteri digər muxtariyyətlərdən fərqlənirdi. Naxçıvan muxtariyyətinin siyasi səlahiyyətlərə malik olması, milli və beynəlxalq müqavilələrlə rəsmiləşdirilməsi, parlamentə malik olması ilə fərqlənir. Muxtariyyətlər əsasən milli-etnik amilə əsasən yaradılır. Bu amil Naxçıvana aid deyil, Naxçıvanın muxtariyyəti işğal təhlükəsinə yol verməmək üçün beynəlxalq müqavilələr və xarici dövlətlərin razılığı ilə yaradılıb. Naxçıvanın statusu Azərbaycan SSR-in Konstitusiyalarında öz əksini tapmışdır. Naxçıvanın muxtariyyəti Azərbaycanın unitar dövlət quruluşuna xələl gətirmir.

**Muxtariyyətin hüquqi statusu.** Naxçıvanın muxtariyyəti tarixi zərurətdən irəli gəlib. Belə ki, 1918-1920-ci illərdə bölgədə çox mürəkkəb tarixi şəraitin yaranması Zəngəzurun qərb hissəsinin itirilməsi nəticəsində Naxçıvan ərazisinin Azərbaycandan ayrı düşməsi uzun illərdən bəri xarici havadarlarının köməyi ilə bu diyara sahib olmağı arzulayan erməniləri cəsarətləndirdi. Lakin, Naxçıvanı Ermənistana birləşdirmək cəhdi yerli əhalinin kəskin etirazı ilə qarşılaşdı. 1921-ci ilin yanvarında Naxçıvanda onun Azərbaycan SSR tərkibində olması barədə referendum keçirildi, rəy sorğusunun nəticəsində əhalinin 90 faizindən çoxu Naxçıvan diyarının muxtar respublika hüququnda Azərbaycan SSR-in tərkibində qalmasına tərəfdar çıxdı [12, s. 301; 13, v. 1].

Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət kimi siyasi-hüquqi statusu öz xarakterinə görə Avropa ölkələrinin tərkibindəki digər tanınmış muxtariyyətlərdən fərqlənir. Məsələ burasındadır ki, Naxçıvan öz statusunu Cənubi Qafqaz regionunun bir neçə ölkəsinin beynəlxalq hüquqi razılaşmaları nəticəsində əldə etmişdir. Həm Naxçıvan, həm də Acarıstan beynəlxalq müqavilələrlə muxtar ərazi statusuna malik olmaq hüququ qazanmışdır. Buna qədər və bundan sonra da dünya təcrübəsində muxtariyyətlər xarakterinə görə müxtəlif formalarda olmuşdur: milli-mədəni muxtariyyət, siyasi-ərazi muxtariyyəti, muxtar respublika, muxtar vilayət, muxtar diyar, muxtar dairə, muxtar mahal və b.

Hətta eyni xarakterli muxtariyyətlər arasında da müxtəlif fərqlər mövcuddur. Gürcüstanın Acarıstan Muxtar Respublikası və Finlandiyanın Aland adaları beynəlxalq müqavilə ilə yaradılsa da, Naxçıvan Muxtar Respublikasının statusu, buradakı muxtariyyətin siyasi statusu,

qeyd olunan hər iki muxtar qurumdan fərqlidir. Acarıstanın siyasi səlahiyyətləri məhduddur və daha çox inzibati-iqtisadi səlahiyyətlərə aiddir. Millətlər liqası tərəfindən yaradılan Aland adalarındakı muxtariyyət isə dövlət statusuna malik deyil. Naxçıvanın muxtariyyəti aşağıdakı əlamətlərə görə seçilir:

– Naxçıvan Muxtar Respublikasının siyasi səlahiyyətlərə malik muxtar dövlət statusunda fəaliyyət göstərməsi;
– bu statusun dəyişdirilməsinin müqaviləni imzalayan dövlətlərin razılığı ilə ola bilməsi;
– muxtariyyətin həm milli, həm də beynəlxalq müqavilələrlə müəyyənləşdirilməsinin konstitusion səviyyədə əksini tapması;
– Naxçıvan muxtariyyətinin daxili qanunvericilik, sərbəst büdcə siyasəti sahəsində, mərkəzi hakimiyyətlə əlaqələr mexanizminin istər siyasi, istərsə də hüquqi cəhətdən heç yerdə təkrarlanmaması;
– prezidentlik üsul-idarəsi olan dövlətin tərkibində parlamentli respublikanın mövcud olması və s.

Beləliklə, bir daha aydın olur ki, Naxçıvan Muxtar Respublikası eksklav xarakterli muxtariyyət modelidir. Bütün siyasi muxtariyyətlərin meydana gəlməsi üçün başlıca amil olan milli-etnik amil dünya təcrübəsində yeganə olaraq Naxçıvan muxtariyyətində tam istisnadır. Hazırda dünyada müxtəlif səbəblərdən yaranmış 283 anklav ərazi mövcuddur [7, 2015, 8 fevral]. Dünya təcrübəsində bu tip ərazi quruluşlarının yaranması tarixi, siyasi və coğrafi səbəblərlə əlaqədardır. Naxçıvan eksklavının yaranması daha çox siyasi-tarixi proseslərin nəticəsidir.

Naxçıvanın muxtariyyəti, daha dəqiq desək Azərbaycanın tərkibində beynəlxalq-hüquqi tanınması və onun xüsusi siyasi-hüquqi statusunun təmin edilməsi ermənilərlə azərbaycanlılar arasında etnosiyasi münaqişə nəticəsində yaradılmışdır. Bu münaqişə faktı və region ölkələrinin Birinci Dünya müharibəsindən sonra onun lokallaşdırılması və minimallaşdırılması istiqamətində səyləri daxili siyasi yox, daha çox xarici siyasi mənşəyə malik olan Naxçıvan muxtariyyətinin unikal xarakterini müəyyən etmişdir. Demək olar ki, 1920-ci ilin əvvəllərində konkret tarixi şəraitdə Naxçıvanın muxtariyyəti bir etnosun milli-siyasi hüquq və mənafelərinin digər birinin təcavüzü şəraitində və hər iki ölkənin dövlətçiliyinin əldə edilməsi ərəfəsində öz dövrü üçün orijinal beynəlxalq hüquqi qoruma forması oldu.

1921-ci ildə Naxçıvan muxtariyyəti başqa bir dövlətin tərkibində ilk dövlət ərazi subyekti olmuşdur ki, onun siyasi-hüquqi statusu, yurisdiksiyasına verilmiş metropoliya dövlətinin bilavasitə iştirakı ilə xaricdən müəyyən edilmişdir. Şübhəsiz ki, bundan əvvəl də bəşəriyyət tarixində xarici dövlətlər növbəti silahlı qarşıdurmanın nəticələrinə əsaslanaraq beynəlxalq müqavilələr vasitəsilə məğlub olan ölkənin müəyyən bir hissəsinin hüquqi statusunu kollektiv şəkildə müəyyənləşdirdikləri nümunələri olmuşdur.

Naxçıvanın muxtariyyəti məsələsində isə vəziyyət tam əksinə idi. Burada muxtariyyətləşmə siyasəti Azərbaycan etnosunun siyasi, mədəni, dini birliyi onun üçün kifayət qədər mürəkkəb, konkret tarixi, milli dövlətçilik şəraitində qoruyub saxlamaq məqsədi daşıyırdı. Naxçıvanda muxtariyyətin yaradılması nəinki Azərbaycan xalqının bir hissəsinin siyasi müqəddəratını təyin etməsini, hətta etnik-dini əlamətə görə ona qarşı edilən təqiblər şəraitində yaşamasını təmin etdi. Naxçıvanın muxtariyyət tarixi yeni dövrün siyasi-hüquqi tarixində bir nümunə oldu.

Müəyyən ərazinin dövlət-siyasi cəhətdən gərginləşməsi yalnız separatçı deyil, həm də tamamilə yunionist inteqrasiya məqsədləri güdə bilər. Etnosun milli birliyinin qorunub saxla-

nılması ideallarına bu xalqın öz müqəddəratını təyin etməsinin siyasi formalarının və praktiki ifadə üsullarının müxtəlifliyi ilə xidmət edə bilər. 1921-ci il Moskva və Qars müqavilələri yalnız beynəlxalq hüquqi sənədlər şəklində azərbaycanlıların millət kimi öz müqəddəratını təyin etdi, hətta bir etnos nümayəndələrinin formalaşdırdığı iki dövlət subyektinin paralel birgə mövcudluğu formasında oldu.

**Moskva və Qars müqavilələrinin təhlili.** Naxçıvanın hüquqi statusu Rusiya Sosialist Sovet Respublikası hökuməti və Türkiyə Böyük Millət Məclisi hökuməti arasında bağlanmış 16 mart 1921-ci il tarixli Moskva müqaviləsinin III maddəsi və I (C) əlavəsi ilə tənzimlənmişdir [19, s. 25]. Müqavilə Mətninə birləşdirilən əlavənin məzmununda Naxçıvan dairəsinin (müqavilənin rus dilində olan variantında belə adlanır – İ.H) sərhədinin Ermənistan istiqamətinə müəyyənləşdirilməsi qeyd edilən müqavilənin ikinci abzasını konkretləşdirdi. Moskva müqaviləsində Naxçıvanla bağlı üç prinsipial məqam öz əksini göstərir.

**Birincisi**, RSFSR hökuməti və TBMM hökuməti “razılaşırlar”, yəni de-yure Azərbaycan protektoratı altında muxtar ərazinin Naxçıvan ətrafında de-faktonun obyektiv mövcudluğunu etiraf edirlər. Başqa sözlə hər iki tərəf yalnız Moskva müqaviləsinin bağlanması zamanı obyektiv olaraq mövcud olan tarixi həqiqəti beynəlxalq normativ aktın normativ müddəası şəklində qanuniləşdirirlər.

**İkincisi**, nə RSFSR hökuməti, nə də TBMM hökuməti, perspektivin və hətta Naxçıvan muxtariyyətinin gerçəkliyinin nə olacağına dair dəqiq bir mövqeyə malik deyildilər. Moskva müqaviləsinin bu məsələ ilə bağlı tərəflərinin qeyri-müəyyənliyi daha yaxşı səciyyələndirir: belə ki, müqavilənin III abzasında Naxçıvan muxtariyyətinin inzibati yurisdiksiyasının coğrafi arealı “Naxçıvan dairəsi” kimi, ikinci abzasında isə “Naxçıvan ərazisi” , I (C) əlavəsində isə “Naxçıvan ərazisi” kimi müəyyən edilir. Yaxşı məlumdur ki, Moskva konfransının işçi dili fransız dili idi, hər bir sözün mənasının dəqiqliklə və birmənalı şəkildə işlədilməsi vacib idi.

Definisiyaların bu cür uyğunsuzluğu bolşeviklərin və kamalçıların mövqelərinin kompromis kimi və ya vəziyyətin ümumi qeyri-müəyyənliyi nəticəsində, yaxud da tərəflərin qarşılıqlı olaraq Naxçıvan muxtariyyətinin hüquqi statusu məsələsində mövqeyini dəqiq konkretləşdirmək istəməməsinin nəticəsi kimi meydana çıxmışdır. Müqavilənin müddəalarına əsasən, Naxçıvan muxtariyyəti Azərbaycan protektoratı altında yerləşən suveren ərazi kimi tanınırdı və öz növbəsində üçüncü tərəfin xeyrinə olan bu beynəlxalq-hüquqi öhdəlikdən imtina edə bilməzdi.

**Üçüncüsü,** Moskva müqaviləsinin III maddəsinin II bəndinə əsasən Sovet Rusiyası özü “Naxçıvan bölgəsi” ilə Ermənistan arasındakı sərhədi müəyyənləşdirmək və sonrakı demarkasiya işində iştirak etməkdən çəkildi. Moskva razılaşmasının tərəfləri, Naxçıvan muxtariyyəti Moskva müqaviləsi ilə qanuniləşdirilən Naxçıvan muxtariyyətinin ərazi ayrılması və sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı bütün məsələlərin Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət üçtərəfli komissiya tərəfindən həll edilməsinə dair razılığa gəldilər. Rusların bu prosesə “müdaxiləsi” sırf texniki xarakter daşıyırdı. Komissiyanın üzvləri tərəfindən sərhəd direktrisasının təyin edilməsi Rusiya Baş Qərargahının xəritəsində 1/210000-bir düymdə – 5 verst boyunca aparılmalı idi.

Qeyd olunan 3 tarixi-hüquqi aspekt tələb edir ki, bəzi suallara da cavab verilsin.

İlk növbədə, Moskva müqaviləsinin mətnində o dövr Azərbaycanın dövlət hüquqi adının qeyri-müəyyənliyi ilə bağlıdır. O, 1920-ci il aprelin 28-də elan edilmiş Azərbaycan Sovet Sosialist Respublikasının artıq mövcud olduğu dövr 16 mart 1921-ci ildə səlahiyyətli şəxslər

tərəfindən imzalanmışdır. Lakin müqavilənin III maddəsində “ASSR” deyil, “Azərbaycan” terminindən istifadə olunur [19, s. 33].

Həmin dövrdə “Naxçıvan bölgəsi” anlayışı 1921-ci ilin yazında türk qoşunlarının nəzarətində olan Naxçıvan, Şərur-Dərələyəz və İrəvan mahalının bir hissəsində yerləşən ərazini adlandırmaq üçün Azərbaycan diplomatiyası tərəfindən istifadə edilmişdir. Naxçıvan muxtariyyətinin siyasi-hüquqi vəziyyəti Qars müqaviləsinin V maddəsində də ifadə olunur. Bu maddənin mahiyyəti ondan ibarət idi ki, Türkiyə, Azərbaycan və Ermənistanın səlahiyyətli nümayəndələri “ razılıq verirlər ki Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etsin” [9, s. 36].

Hər iki müqavilənin sərhəd mətninin müqayisəli təhlili müəyyən fərqi ortaya çıxarır. Moskva müqaviləsində söhbət “Naxçıvan dairəsi” və ya “Naxçıvan ərazisi”, Qars müqaviləsində isə artıq müəyyən edilmiş “Naxçıvan vilayəti”ndən gedir. İki müqavilənin ikinci mühüm mətn fərqi Naxçıvan ilə Azərbaycan arasında münasibətlərin hüquqi definisiyasına aiddir: Moskva müqaviləsində Azərbaycanın Naxçıvan üzərində protektoratı, Qars müqaviləsində isə himayəçiliyi haqqında danışılır. Fikrimizcə, bəhs olunan məsələ kontekstində Moskva və Qars müqavilələrinin məzmununun əsas fərqi məhz bundadır.

Moskva müqaviləsinin mətnində Azərbaycanın və Naxçıvan muxtariyyətinin tabeliyini göstərmək üçün istifadə edilən “protektorat” termini beynəlxalq hüquq mövqeyindən neytral və daha az müəyyən edilmiş “himayə” termini ilə əvəz edilmişdir. Moskva konfransında TBMM hökumətinin nümayəndə heyəti Türkiyənin Naxçıvanı qorumasını elan etmiş, Qars müqaviləsinin mətninə bu ifadə daxil edilmişdir. “Protektorat” hüquqi terminin “himayə” anlayışı ilə əvəz edilməsi, onun “heç bir üçüncü dövlətə” güzəşt edilməməsi haqqında istisnaya səbəb oldu. Qars müqaviləsinin bu cür ifadəsini qəbul edən Cənubi Qafqaz ölkələri, əslində, Azərbaycanın Naxçıvan üzərində protektoratı dövlət-siyasi suverenliyə çevirdilər.

Naxçıvanla bağlı hər iki müqavilə mətnində başqa fərlər də özünü göstərir. Moskva müqaviləsinin üçüncü bəndində Türkiyə nümayəndə heyətinin təkidi ilə yazılmış “Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir” müddəası nədənsə Qars müqaviləsində yoxdur. Əksinə Qars müqaviləsinin beşinci bəndində isə “Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gələn” tərəflər daxil edilib ki, bunlar Türkiyə hökuməti, Azərbaycan və Ermənistan sovet respublikaları idi.

Moskva müqaviləsində Naxçıvan vilayətinin sahəsi 6038 kv. km (bəzi mənbələrdə 5988 kv. km) müəyyən edilsə də, Qars müqaviləsində bu 285 kvadrat kilometr azaldılaraq 5753 kvadrat kilometr olmuşdur.

**Türkiyənin status dəyişikliyinə münasibəti.** 1923-cü il fevralın 27-də üçüncü Ümumnaxçıvan Sovetlər qurultayının qərarı əsasında Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Diyarı yaradıldı [20, s. 120]. Lakin bu, beynəlxalq müqavilələrin müddəalarına zidd idi və Sovet-Türkiyə diplomatik münaqişəsinə gətirib çıxardı.

Bunun həlli isə Sovet Rusiyasının ali siyasi rəhbərliyinin müdaxiləsini tələb edirdi. RK (b)P MK Siyasi Bürosunun “23 avqust 1923-cü il tarixli iclasının, “uzun müddət gizli saxlanılan, 5 gün ərzində geri qaytarılmalıdır” başlığı altında saxlanılan materiallar buna sübutdur [15, v. 375]. Daha doğrusu, söhbət Qars müqaviləsi bağlandıqdan qısa bir müddət sonra Naxçıvanın siyasi həyatındakı vəziyyətlə əlaqədar RSFSR Xarici İşlər Xalq komissarı G.V.Çiçerinin RK (b)P MK Siyasi Bürosunun üzvü İ.V.Stalinə ünvanladığı memorandumdan gedir:

"23 avqust 1923-cü il. Yoldaş Stalinə Nüsxəsi MK-nın üzvlərinə və XİXK-nin üzvlərinə

Hörmətli yoldaş, biz bir dəfə Türkiyə hökumətindən Naxçıvanın Azərbaycan tərəfindən anneksiya olunmasına qarşı etiraz aldıq. Moskva və Qars müqaviləsinə əsasən, Naxçıvan Azərbaycanın himayəsi altında muxtar bir ərazidir. Türk hökumətinə məlumdur ki, Azərbaycan Respublikası MİK-nin qərarı ilə Naxçıvan Azərbaycan ərazisinin bir hissəsinə çevrilib, bu da Türkiyə ilə bağlanan müqavilələrə ziddir. Bizim bu məsələ ilə bağlı Tiflisə göndərdiyimiz bütün məktub və teleqramlarımız cavabsız qalıb. Yoldaş Orconikidze Moskvaya gələn zaman, mən ona bu haqda yazdım, indi isə Berlindən ondan cavab almışam ki, Naxçıvan bölgəsinin qurultayı onu Azərbaycanın ayrılmaz bir hissəsi elan edib və indi o qəza hüququndadır. Yoldaş Orconikidze əlavə edir ki, buna etiraz etmir, çünki bu Naxçıvanın öz hüququdur.

Bu, təəssüf ki, düz deyil. Əgər müqavilə üzrə hər hansı ərazi məlum statusa malikdirsə, onun statusu razılığa gələn tərəflər arasında razılıq olmadan dəyişdirilə bilməz. Məsələn, Lüksemburq əhalisinin özünün hansı istəyi olursa-olsun, nə Fransa, nə Almaniya, nə də Belçika tərəfindən anneksiya edilə bilməzdi. Beləliklə, bu halda həqiqətən Türkiyə ilə müqavilələrimizin pozulması baş verdi. Mən görürəm ki, Naxçıvanı nə üçün muxtar diyar elan etmək olmaz, bu da əslində, mahal kimi mövqeyindən xüsusilə fərqlənməyəcək.

Kommunist salamı ilə Çiçerin" [15, v. 376].

Bu məruzəli məktub RK(b)P Mərkəzi Komitəsinin Siyasi Bürosunun 23 avqust 1923-cü il tarixli iclasında nəzərdən keçirilmiş və G.Çiçerinin təklifi qəbul edilmişdir.

**Unitar dövlət və muxtar respublika.** Naxçıvan 1921-ci ildən Azərbaycanın muxtar qurumu kimi idarə olunurdusa da, 30-cu illərin ortalarına qədər o bəzən rəsmi sənədlərdə Naxçıvan SSR adlandırılmışdır. Bununla belə, Moskva və Qars müqavilələri beynəlxalq hüquqi akt kimi Naxçıvan Muxtar Respublikasının gələcək mövcudluğunun və inkişafının təminatçısı oldu. SSRİ, Azərbaycan SSR və Naxçıvanın MSSR-in sonrakı konstitusion aktları bu beynəlxalq müqavilələri əsas götürürdü.

Azərbaycan SSR-in 1927, 1937 və 1978-ci il konstitusiyalarında Naxçıvanın statusu ilə bağlı məsələlər öz əksini tapmışdı.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının VIII fəsli bütövlükdə Naxçıvan Muxtar Respublikasının statusuna həsr olunub. 134-cü maddədə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu konstitusiya ilə müəyyən edilir və Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi göstərilir [1, s. 53]. Naxçıvanın muxtariyyəti Azərbaycanın unitar dövlət quruluşu formasına xələl gətirmir.

**Birincisi,** Naxçıvanın muxtariyyəti siyasi ərazi muxtariyyətidir və bu status Azərbaycanın əsas ərazisi ilə birbaşa quru əlaqəsinin olmamasından irəli gəlir. Ümummilli Heydər Əliyevin qeyd etdiyi kimi "Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi [8, s. 75].

**İkincisi,** Naxçıvan Muxtar Respublikasının Konstitusiyası hazırlanarkən Azərbaycanın Konstitusiya quruluşunun əsasları ilə bağlı əsas xüsusiyyətlər – siyasi hüquq və azadlıqlar, vahid məhkəmə quruluşu, qanunvericiliyin vahid əsasları, vahid dövlət dili və dövlət rəmzləri, vahid vətəndaşlıq, vahid silahlı qüvvələr, vahid milli valyuta və maliyyə-kredit sisteminin tətbiqi nəzərə alınıb [11, 2024, 9 fevral]. Bütün bunlar unitar dövlət və beynəlxalq hüququn subyekti kimi Azərbaycanın suverenliyinə təminat verməklə konstitusiyada öz əksini tapıb.

Azərbaycan dövlətçiliyinin vahidliyi həm Azərbaycan Konstitusiyası, həm də Naxçıvan Konstitusiyası ilə təsbit olunub.

Hər zaman qətiyyət göstərən Naxçıvan diyarının əhalisi Azərbaycan tərkibində muxtariyyət tələb edirdi. Naxçıvan ilk növbədə yerli əhalinin mübarizəsi və qətiyyəti hesabına Azərbaycanın tərkibində qalmış oldu. Bunu Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında bu barədə demişdi ki, İrəvan quberniyasının bütün türk rayonu, o cümlədən də Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək təbii orqanizm saydığı Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi. 1921-ci ilin yanvarında keçirilmiş rəy sorğusunda isə əhalinin tam əksəriyyəti Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Unitar dövlətlər və onun tərkibində olan muxtar respublikalar məsələsi bəzən birmənalı anlaşılmır. Xüsusilə belə bir fikir vurğulanır ki, "unitar dövlətin tərkibində muxtar respublika ola bilməz". Bu istiqamətdə tədqiqatlar aparan araşdırıcılar bunun əksini söyləyirlər. Qeyd edirlər ki, BMT üzvü olan 193 dövlətin böyük əksəriyyəti, yəni 85 faizə yaxını – 168-i unitar dövlətlərdir. Bu dövlətlərin 32-nin tərkibində 40-dan artıq bu və ya digər dərəcədə özünüidarəetmə səlahiyyətlərinə malik muxtar ərazi vahidləri mövcuddur. Böyük Britaniya, Portuqaliya, İspaniya, İtaliya, Fransa, Danimarka, Finlandiya, Gürcüstan, Çin, Serbiya, Panama, İndoneziya və b. ölkələrin tərkibində ən azı bir muxtariyyətin olduğu unitar quruluşa malik dövlətlərdir.

Dövlətin tərkibində muxtariyyətin olması onun federasiya kimi qəbul edilməsinə əsas vermir. Lakin, bu faktdır ki, bir sıra federasiyaların da tərkibində muxtar ərazi qurumları vardır və onlar bir çox hallarda federal subyektlərdən öz səlahiyyətlərinin əlahiddəliyinə görə fərqlənirlər. Məsələn, "muxtariyyətlər nəhəngi" adlandırılan Rusiya Federasiyasının tərkibində 84 bərabər hüquqlu federal subyektdən əlavə, 350-dən artıq regional və 200-dən çox yerli-mədəni muxtariyyətlər mövcuddur. Geniş regional milli muxtariyyətlər sistemini yaratmış, əhalisinə görə dünyanın ən böyük dövləti olan Çin Xalq Respublikasını da bu sıraya aid etmək olar. Hazırda bu dövlətin tərkibində 5 muxtar vilayət, 30 muxtar dairə, 120 muxtar mahal fəaliyyət göstərir [5, s. 32].

Unitar respublika olan İtaliyanın 20 əyalətindən 5-i milli (ərazi) muxtariyyəti statusuna malikdir. Finlandiyanın tərkibində Aland adaları siyasi muxtariyyət hüququndadır. Unitar respublika quruluşuna malik Panama inzibati ərazi bölgüsünə görə 10 əyalət, 77 dairə, 5 muxtar ərazidən ibarətdir və s.

**Geniş hüquq və səlahiyyətlər.** Tarixən hər zaman Azərbaycana məxsus, Azərbaycan türklərinin yaşadığı ərazi olmuş Naxçıvan bölgəsinin ölkənin tərkibində muxtariyyət statusu qazanması yalnız hərbi-siyasi və tarixi-coğrafi amillərlə bağlı olub, etnik milli amilin tamamilə istisna edilməsi ilə şərtlənir. Bir sıra iddiaçılar muxtariyyətin "muxtar respublika" formasına qarşı çıxırlar. Bu statusun ləğv edilməsini, aşağı formalardan birinin seçilməsini arzu edirlər. Sadəcə, bu arzu onlarda nədən qaynaqlanır? Niyə onları bu qədər narahat edir?

Naxçıvan Muxtar Respublikası Naxçıvan Sovet Sosialist Respublikası adlandırılmış, hətta bir müddət müstəqil fəaliyyət göstərmiş, çox geniş hüquq və səlahiyyətlərə malik olmuşdur. Belə ki, 20-ci illərdə Naxçıvanda baş verən hərbi, siyasi, beynəlxalq proseslər Naxçıvanın müstəqil beynəlxalq münasibətlərdə olmasını labüd etmişdir və qanunvericilik də ona bu səlahiyyətin verilməsini öz normalarında əks etdirmişdir. Bu illərdə Naxçıvan MSSR İran, Türkiyə kimi qonşu xarici dövlətlərlə, Cənubi Qafqaz respublikaları ilə diplomatik və iqtisadi-ticari əlaqələri konsulluq və nümayəndəlik vasitəsilə həyata keçirmişdir.

Naxçıvan MSSR-in Maku, Xoy və Təbriz şəhərlərində konsulluğu, Türkiyənin Qars şəhərində RSFSR konsulluğu yanında müvəkkilliyi yaradılmışdı [12, s. 314]. Muxtar Respublikanın Bakı, İrəvan və Tiflis şəhərlərində daimi, ZSFSR yanında iqtisadi, eləcə də ayrıca dəmir yolu nümayəndəsi olmuşdur. Əziz Şərif uzun illər Naxçıvan MSSR-in Gürcüstanda, sonra isə ZSFSR-də daimi nümayəndəsi olmuşdur.

Gümrü müqaviləsinin tələblərinə əsasən, Naxçıvan MSSR-də yerləşdirilmiş türk qoşunları Türkiyənin Naxçıvan MSSR-dəki hərbi nümayəndəliyi vasitəsi ilə idarə olunurdu. Lakin türk qoşunlarının ərazidən çıxarılması, sovet-türk münasibətlərində sərinləşmənin əmələ gəlməsi 1924-cü ilin iyul ayında Türkiyə Cümhuriyyətinin Naxçıvan MSSR-dəki hərbi nümayəndəliyinin bağlanmasına səbəb oldu.

İranın Naxçıvan MSSR-dəki konsulluğu 17 noyabr 1938-ci ilədək fəaliyyət göstərmişdir [2, 2014, 13 aprel]. B.Şahtaxtinski Qars konfransında çıxış edərkən demişdir: "Azərbaycan şura hökumətidir. Naxçıvana veriləcək muxtariyyət Rusiyadakı sistemə görə olacaqdır. Naxçıvan uzaqda (Azərbaycandan – İ.H) yerləşdiyi üçün ona verilən idarə üsulu muxtariyyətdən də artıqdır. Xalq komissarlarından təşkil olunmuş bir məclis vardır" [17, s. 963-964].

Naxçıvan əhalisi həmişə Azərbaycanın tərkibində (protektoratlığında, himayəsində olsa da belə) olması uğrunda mübarizə aparmışdır və son nəticədə buna nail olmuşdur. Naxçıvan əhalisi ölkəni heç vaxt Azərbaycandan ayrı təsəvvür etməmişdir.

**Nadir muxtariyyət modeli.** Bir çox Avropa siyasətçiləri Naxçıvanın muxtariyyətini beynəlxalq unikal bir model, hüquqi, siyasi və tarixi baxımdan bir fenomen kimi qiymətləndirirlər. Məsələ burasındadır ki, Naxçıvan muxtariyyəti daxili qanunvericiliklə yanaşı, həm də beynəlxalq müqavilələrlə müəyyən olunub. Bu amil dünyadakı çox az muxtar qurumların statusunda öz əksini tapıb [6, 2014, 27 dekabr].

Naxçıvan Muxtar Respublikasının siyasi səlahiyyətlərə malik muxtar dövlət statusunda fəaliyyət göstərməsi, bu statusun dəyişdirilməsinin hələlik mövcud olmaması və muxtariyyətin konstitusional səviyyədə əksini tapması Naxçıvan muxtariyyətini fərqləndirən amillərdəndir. Unitar dövlət olan Azərbaycanın tərkibində muxtar dövlətin, parlamentli respublikanın mövcud olması da onu fərqləndirir.

Naxçıvanın muxtariyyət modeli 30 oktyabr 2013-cü il tarixdə Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin sessiyasının sənədlərində xüsusi olaraq qeyd edilib. Sessiyada "Avropada xüsusi statusa malik region və ərazilər" adlı hesabatda Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusu xüsusi qeyd edilərək belə bir modelin çox faydalı olduğu vurğulanıb. Bu cür dəyərləndirmə 1997-ci ildə Venesiya Komissiyasının Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsinə verdiyi rəydə də öz əksini tapıb [9, 2014, 9 fevral].

Beləliklə bir daha aydın olur ki, unitar dövlətin tərkibində muxtar respublikanın olması ona heç bir mənfi meyllər yaratmır. Konkret olaraq Naxçıvan Muxtar Respublikasına gəldikdə isə bunun unitar dövlətə, onun ərazi bütövlüyünə, siyasi-hüquqi statusuna heç bir maneçiliyi yoxdur, əksinə xeyri vardır. 1990-cı ildə Ermənistan SSR Naxçıvan ərazisinə hərbi müdaxilə edəndə Naxçıvan muxtariyyət statusundan, Qars müqaviləsinin müddəalarından istifadə edərək SSRİ tərkibindən çıxdığını bəyan etdi.

1992-ci ilin may ayında Sədərək rayonuna Ermənilərin hücumu ilə əlaqədar Türkiyə hökuməti bəyanat qəbul edərək 1921-ci il Qars müqaviləsinin şərtlərinə əsasən Naxçıvan muxtariyyətinin qarantı olduğunu bütün dünyaya çatdırdı. Türkiyə, nəinki bilavasitə özünün fəal siyasi-diplomatik gedişləri ilə Naxçıvanın müdafiəsinə qoşuldu, eyni zamanda, onun dəstəyi ilə 1992-ci ilin may ayında düşmənin hərbi əməliyyatları genişləndirdiyi bir vaxtda

dünyanın 57 dövləti Ermənistanın Naxçıvana təcavüzünü qətiyyətlə pislədi ki, bu da, bütövlükdə, real nəticəyə gətirib çıxaran böyük diplomatik uğur idi.

**Naxçıvan muxtariyyətinin tarixi əhəmiyyəti.** Keçmiş SSRİ deyilən ölkədə muxtariyyətləşmə siyasəti 1918-ci ildə başlamış və 1924-cü ilə qədər davam etmişdir. Artıq 1924-cü ildə SSRİ tərkibində muxtar vilayətlərin və muxtar respublikaların yaradılması başa çatdırılmışdı. Bunlardan ancaq Naxçıvan və Acarıstan xüsusi beynəlxalq müqavilələrlə muxtar ərazi statusuna malik olmaq hüququ qazanmışdır. Azərbaycan Respublikasının tərkibində olan Naxçıvan Muxtar Respublikası heç bir halda milli amilə söykənmir və özünün yaranma tarixi və şərtlərinə görə dünyada yeganədir [5, s. 24].

Qalan muxtariyyətlər Sovet Rusiyasının mərkəzi dövlət hakimiyyəti orqanlarının aktları əsasında təşkil edilmişdi. Belə bir cəhət də qeyd edilməlidir ki, Naxçıvan Muxtar Respublikası üç xarici dövlətlə sərhədə malikdir və indiki halda Azərbaycanla quru sərhədi yoxdur. Zəngəzur dəhlizinin açılması istiqamətində Azərbaycan dövlətinin məqsədyönlü fəaliyyəti Azərbaycanla Naxçıvan arasında yolların açılmasına, blokadanın aradan qaldırılmasına xidmət edir.

Ümumiyyətlə, beynəlxalq müqavilələrdə (Moskva və Qars müqavilələrində) yer alan ayrıca bəndlərə əsasən, Naxçıvan Azərbaycanın tərkibində özəl status qazanmış və həmin statusun pozulması, habelə Naxçıvan ərazisinin dəyişdirilməsi və onun başqa dövlətə birləşdirilməsini qadağan edən müddəaya Rusiya ilə Türkiyə beynəlxalq təminat vermişdir.

Bununla belə yüz illik tarixi ərzində Rusiya, eləcə də SSRİ tərəfindən bu təminata heç də həmişə əməl olunduğunu söyləmək olmaz. Naxçıvan Muxtar Respublikasının hüquqi-siyasi statusunun dəyişdirilməsinə cəhd, ərazinin azaldılması bilavasitə Sovet Rusiyasının və SSRİ-nin qeyri-obyektiv və ikili mövqeyi sayəsində olmuşdur.

Azərbaycanın tərkibində Naxçıvan vilayətinə muxtariyyət statusunun verilməsi tarixi əhəmiyyət kəsb etmişdir. Ümummilli lider Heydər Əliyev Naxçıvanın muxtariyyət statusunun həyati əhəmiyyətini yüksək qiymətləndirərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir.

Naxçıvan əhalisi ərazini Azərbaycanın tərkib hissəsi kimi qoruyub saxlamaq üçün 74 minə yaxın övladını itirmişdir. Naxçıvanlıların qəhrəmanlığına Azərbaycan rəhbərləri yüksək qiymət verdiyi kimi, düşmənlərimiz də bunu etiraf etməyə məcbur olmuşdur. Naxçıvanın fədakar və qəhrəman övladları təkcə erməni daşnakları ilə mübarizə aparmamışlar, onlar həm də Rusiyanın, İngiltərənin və ABŞ-ın məkrli oyunlarını başa düşmüş, onların məqsədlərinin reallaşmasına imkan verməmişlər. Ona görə də əldə olunan muxtariyyət statusu və Naxçıvan Muxtar Respublikasının yaradılması tarixi nailiyyət kimi dəyərləndirilir. Bu isə Naxçıvan Muxtar Respublikasının siyasi-hüquqi statusunda ifadə olunur.

**Nəticə.** Yüz illik yubileyi qeyd olunan Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyət orqanları Azərbaycan ilə üzvi surətdə bağlıdır və qarşılıqlı şəkildə ahəngdar fəaliyyət göstərirlər. Hələ 1921-ci ilin əvvəlində keçirilən rəy sorğusunda mahalın əhalisi Naxçıvan ərazisinin respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi. Naxçıvanın muxtar ərazi təşkil etməsi Moskva və Qars beynəlxalq müqavilələrilə təsdiq olundu. N.Nərimanov bununla əlaqədar olaraq demişdir ki, Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratı altında müstəqil respublika elan olunur. Orada nümayəndəmiz olacaq və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik.

B.Şahtaxtinskinin 1921-ci il 10 noyabr tarixli bəyanatında deyilirdi ki, Naxçıvan vilayəti "Muxtar Xalq Sovetləri respublikaları" sırasına daxil edilir və bununla yanaşı Azərbaycanın himayəsi altına keçir; gənc respublikanın özünün XKS, Azərbaycanın isə yeni dövlət nümayəndəsi olacaqdır. Naxçıvan diyarı əhalisinin qətiyyətli mövqeyi və Türkiyə Milli hökumətinin ardıcıl və səmərəli diplomatik fəaliyyəti nəticəsində bölgənin ərazi mənsubiyyəti məsələsi Azərbaycan üçün qanuni və ədalətli qaydada həll olundu. Azərbaycan daxilində Naxçıvanın Muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə bağlı idi. Naxçıvan muxtar ölkəsi haqqında Əsasnamədə və Naxçıvan MSSR haqqında yeni Əsasnamədə Azərbaycan SSR daxilində muxtar respublika elan etməyi, ona Naxçıvan MSSR adını verməyi qərara almışdır.

Azərbaycan dövlətçiliyinin vahidliyi həm Azərbaycan Konstitusiyası, həm də Naxçıvan Konstitusiyası ilə təsbit olunub.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının muxtariyyət tarixi araşdırılarkən bir sıra maraqlı və əhəmiyyətli əlamətləri müəyyən etmək olar. Belə ki, bir sıra ölkələrin tərkibində muxtariyyətlər mövcuddur. Bu muxtariyyətlər həmin ölkənin tərkibində yaşayan azyaşlı xalqların mədəni cəhətdən inkişaf etmələri üçün yaradılıb. Yeni, muxtar qurumlar milli-etnik əlamətlər əsas götürülərək yaradılmışdır.

Muxtariyyətlərin müxtəlif formalarına təsadüf edilir. Azsaylı muxtariyyətlər vardır ki, onlar beynəlxalq müqavilələr əsasında yaradılıb. Naxçıvan muxtariyyət statusu da beynəlxalq müqavilələr əsasında yaradılıb. Burada milli-etnik amil yoxdur. Çünki bu ərazidə yaşayanlar azərbaycanlılardır. Naxçıvan muxtariyyətinin yaranması tarixi, siyasi və coğrafi səbəblərlə əlaqədardır. Ərazinin işğal təhlükəsindən qorunması üçün muxtariyyət forması qəbul edilmişdir.

Naxçıvan vilayətinə muxtar respublika statusu verməklə ona müəyyən səlahiyyətlər də verilmişdir. Sovet Rusiyası sonradan bu səlahiyyətləri azaltmaqla muxtar respublikanı muxtar diyara çevirmişdir. Bu beynəlxalq müqavilələrə zidd olduğundan muxtar respublika statusu bərpa edilmiş və 1924-cü ildə Naxçıvan Muxtar Respublikası yaradılmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016, 53 s.
2. Bağırov Z. Azərbaycanda muxtariyyət beynəlxalq münasibətlərin subyekti kimi. "Azərbaycan" qəz., 2014, 13 aprel.
3. Cəfərli E. Keçmiş SSRİ Konstitusiyalarında muxtar respublikalarla bağlı hüquqi normalar və Naxçıvan muxtariyyəti // NDU-nun Elmi əsərləri, 2016, № 5, s. 113-119.
4. Cəfərli E. Beynəlxalq təcrübədə muxtariyyət. "Şərq qapısı" qəz., 2003, 7 fevral.
5. Cəfərli E. Dövlət quruluşunun formaları. Bakı, 2009, 60 s.
6. Əliyev R. Naxçıvanın muxtariyyəti beynəlxalq unikal model kimi hüquqi, siyasi və tarixi baxımdan bir fenomendir. "Şərq qapısı" qəz., 2014, 27 dekabr.
7. Həbibbəyli Ə. Naxçıvan: mübarizə, qürur və əzəmət rəmzi. "Xalq qəzeti", 2015, 8 fevral.
8. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 24-cü kitab, Bakı, 2005, 504 s.
9. İbrahimov A. Naxçıvan muxtariyyəti beynəlxalq model kimi. "Şərq qapısı" qəz., 2014, 8 fevral.
10. Qars müqaviləsi. Azərbaycan, rus, türk və fransız dillərində / Tərtib edəni və ön sözün müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, 2004, 84 s.

11. Qəribli İ. Naxçıvan Muxtar Respublikasının hüquqi statusu. "Azərbaycan" qəz., 2024, 9 fevral.
12. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), Bakı, 1996, 328 s.
13. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): F. 314, siy. 5, sax. vah. 7, iş 18.
14. Paşayev A. Naxçıvan muxtariyyəti necə yarandı. "Azərbaycan" qəz., 1999, 25 sentyabr.
15. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi (RDSSTA): F. 17. siy. 3, iş 126.
16. Soysal İ. Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasal andlaşmaları. I cilt (1920-1945), 2 baskı, Ankara, 1989, 704 s.
17. Karabekir K. İstiqlal Harbimiz. İstanbul, 1988.
18. "Азербайджан" qəz., 1919, 10 sentyabr.
19. Кузнецов О. Международно-правовой статус Нахичевани в соответствии с Московским и Карским договорами 1921 года / Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir (4-5 iyul 2014-cü ildə keçirilmiş Beynəlxalq konfransın materialları). Naxçıvan: Əcəmi, 2015, 328 s.
20. Гулиев Дж. К истории образования второй республики Азербайджана. Баку: Элм, 1997, 164 с.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: hacıyev.i1951@gmail.com***

**Ismayil Hajiyev**

## POLITICAL AND LEGAL-STATUS OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article examines the socio-political and military situation in the Nakhchivan region in 1918-1921, claims of Armenians to the territory of Nakhchivan, military raids on the territory for this purpose, the struggle of Nakhchivan population against Armenians, the transfer of Zangezur to Armenia, as a result, the violation of the border connection of Nakhchivan with Azerbaijan, the struggle of Nakhchivan population for the status of autonomy, the opinion poll conducted in Nakhchivan, the conclusion of the Treaty of Moscow and Kars and the issue of Nakhchivan.

Unitary states, autonomous entities within them, their mutual relations, features of Nakhchivan autonomy, its political and legal status, world experience and other issues were also examined comparatively.

**Keywords:** *Moscow and Kars treaties, Nakhchivan, autonomy, unitary state, territorial autonomy, autonomous republic, political and legal status.*

**Исмаил Гаджиев**

## ПОЛИТИКО-ПРАВОВОЙ СТАТУС НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье описывается общественно-политическая и военная ситуация, сложившаяся в Нахчыванском крае в 1918-1921 годах, претензии армян на территорию Нахчывана, военные набеги на эту территорию, борьба Нахчыванского населения против армян, передача Зангезура Армении, в результате чего нарушается пограничная связь Нахчывана с Азербайджаном, борьба населения Нахчывана за статус автономии, опрос общественного мнения в Нахчыване, заключение Московского и Карсского договоров и вопрос Нахчывана.

Были также сравнительно изучены унитарные государства, автономные образования в их составе, их взаимосвязь, особенности Нахчыванской автономии, ее политико-правовой статус, мировой опыт и другие вопросы.

**Ключевые слова:** *Московский и Карсский договоры, Нахчыван, автономия, унитарное государство, территориальная автономия, автономная республика, политико-правовой статус.*

**Daxilolma tarixi: İlkin variant 05.09.2024**
**Son variant 26.09.2024**